

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Nachçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 202 (23.844)

30 oktyabr 2021-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Türkiyənin Diyanət İşləri İdarəsinin sədri Ali Erbaşı qəbul edib.

Prezident İlham Əliyev Türkiyə Respublikasının milli bayramı – Respublika Günü münasibətilə təbriklərini çatdırıb, türk xalqına xoşbəxtlik və rifah arzulayıb.

Söhbət zamanı Türkiyə Prezidenti Rəcəb Təyyib Ərdoğanın ölkəmizə bu yaxınlardakı səfəri məmnunluqla xatırlanıb, bu səfərin Azərbaycanla Türkiyə arasında qardaşlıq və dostluq münasibətlərinin növbəti nümunəsi olduğu və əlaqələrimizi daha da möhkəmləndirdiyi vurğulanıb.

Türkiyənin Diyanət İşləri İdarəsinin sədri Ali Erbaşın işğaldan azad olunmuş torpaqlarımıza səfər etməsinin önəminə toxunularaq, onun işğal dövründə bütün tarixi-dini abidələrin ermənilər tərəfindən məhv edildiyinin şahidi olduğu qeyd edilib.

Görüşdə ölkələrimiz arasında qardaşlıq və dostluq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi məmnunluqla vurğulanıb.

## Naxçıvanda Türkiyə Cümhuriyyətinin 98-ci ildönümü münasibətilə tədbir keçirilib





Oktyabrın 29-da Türkiyə Cümhuriyyətinin yaradılmasının 98-ci ildönümü münasibətilə Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğu tərəfindən rəsmi qəbul təşkil edilmişdir.

Tədbirdə Türkiyənin işğaldan azad edilməsi, Cümhuriyyətin qurulması və 44 günlük Vətən müharibəsində canlarını fəda edən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, Azərbaycan və Türkiyə Respublikalarının Dövlət Himnləri səsləndirilmişdir.

Türkiyənin Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Təyyib Ərdoğanın Cümhuriyyətin 98-ci ildönümü münasibətilə Türkiyənin xarici ölkələrdəki diplomatik nümayəndəliklərinə göndərdiyi məktubu oxumuşdur. Sonra baş konsul builki cümhuriyyət bayramının əhəmiyyətini vurğulayaraq demişdir ki, Azərbaycanın işğala son verərək torpaqlarını azad etməsindən sonra qeyd etdiyimiz ilk bayramdır. Cümhuriyyətimizin qurucusu qazi Mustafa Kamal Atatürkün ***“Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir”*** ifadəsini rəhbər tutaraq İkinci Qarabağ müharibəsində də Azərbaycanın yanında olduq, şəhidlər üçün birlikdə kədərləndik, torpaqların azad olunmasına birlikdə sevindik. 44 gündən sonra Azərbaycanın tarixi zəfərini də birlikdə qeyd etdik. Ölkə prezidentləri 15 iyun 2021-ci il tarixdə Türk dünyasının mədəniyyət paytaxtı olan Şuşada dostluq və qardaşlığımızı gücləndirəcək, əlaqələrin daha da inkişafına səbəb olacaq Şuşa Bəyannaməsini imzaladılar. Bu gün Türkiyə-Azərbaycan əlaqələri yalnız iki ölkəyə deyil, bölgədə sülh və sabitliyə xidmət etməkdədir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyənin müstəqillik bayramı – Cümhuriyyət elan



edilməsinin 98-ci ildönümü münasibətilə tədbir iştirakçılarını və qardaş Türkiyə xalqını təbrik edərək demişdir: Dövlətçilik ənənələri olmadan müstəqilliyə nail olmaq və onu qoruyub saxlamaq mümkün deyil. Ötən 98 ildə Türkiyə Cümhuriyyəti müstəqilliyini və dövlətçiliyini möhkəmləndirərək dünyanın inkişaf etmiş ölkələrindən birinə çevrilmişdir. Milli liderlərimiz Mustafa Kamal Atatürk və Heydər Əliyev tərəfindən ***bir millət, iki dövlət*** səviyyəsinə yüksəldilmiş Azərbaycan-Türkiyə dostluq və qardaşlığı bu gün regionda əmin-amanlığın və sabitliyin təminatıdır. Vətən müharibəsində Türkiyə dövlətinin Azərbaycana göstərdiyi siyasi dəstək bunun bariz ifadəsidir. Beynəlxalq Qars müqaviləsinə əsaslanan siyasi müttəfiqliyimiz 100 ildən sonra Şuşa bəyannaməsi ilə bir daha təsdiq olunmuş, həm ikitərəfli münasibətlərimiz, həm də regional əməkdaşlığımız yeni mərhələyə yüksəlmişdir. Azərbaycan-Türkiyə əlaqələrindən danışarkən Naxçıvan Muxtar Respublikasının bu əlaqələrdə iştirakı və strateji əhəmiyyəti xüsusi qeyd olunmalıdır. Hazırda muxtar respublika ilə Türkiyə arasında bir çox istiqamətlər üzrə davam edən əməkdaşlıq məmnunluq doğurur.

Ali Məclisin Sədri ikitərəfli münasibətlərdə Türkiyənin Naxçıvandakı Baş Konsulluğunun fəaliyyətini qeyd edərək Cümhuriyyət bayramı münasibətilə qardaş Türkiyə xalqını bir daha təbrik etmiş, çıxışını Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fikirləri ilə tamamlamışdır: ***“Dünya miqyasında Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın ikinci ölkə tapmaq mümkün deyil. Hər zaman bir-birimizin yanındayıq. Bundan sonra da belə olacaq”.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2021-ci il oktyabrın 26-da Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında əməkdaşlıq əlaqələrinin inkişafındakı xidmətlərinə görə Məhmət Emin Kirazın “Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə” qızıl nişanı ilə təltif olunması haqqında Sərəncam imzalamışdır.

Tədbirdə Ali Məclis Sədrinin Sərəncamı oxunmuşdur.

Ali Məclisin Sədri “Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə” qızıl nişanı və vəsiqəsini Türkiyə Respublikasının Naxçıvan Muxtar Respublikasındakı Baş konsulu Məhmət Emin Kiraza təqdim etmişdir.

Məhmət Emin Kiraz bu təltifi Baş konsulluq və Naxçıvandakı Türkiyə Silahlı Qüvvələri nümayəndələri adından aldığını bildirmiş və minnətdarlıq etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti oktyabr ayının son 15 günü ərzində bir sıra qərarlar qəbul edib. Belə ki, Nazirlər Kabinetinin 2021-ci il 18 oktyabr tarixli Qərarı ilə “Koronavirus infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi haqqında” 2021-ci il 21 avqust tarixli Qərarında dəyişiklik edilmişdir. Dəyişikliyə əsasən Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzi publik hüquqi şəxsin tibbi-profilaktik tədbirləri həyata keçirən işçilərinə, pasiyentlərə stasionar tibbi xidmət göstərən və bioloji materialın müayinəsi ilə məşğul olan laboratoriya işçilərinə, həmçinin Səhiyyə Nazirliyinin təcili tibbi yardım xidməti göstərən tibb işçilərinə, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin tibb işçilərinə və koronavirus infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən digər səhiyyə müəssisələrinin tibb işçilərinin əməkhaqlarına koronavirus infeksiyası ilə əlaqəli əmək şəraitinə görə ödənilən əlavənin müddəti sentyabr ayının 1-dən noyabr ayının 1-dək uzadılmışdır.

Nazirlər Kabinetinin eyni tarixli digər Qərarı ilə “Naxçıvan Muxtar Respublikasında baytarlıq xidməti və nəzarəti tədbirlərinə görə alınan xidmət haqqının məbləği” təsdiq edilmişdir. Müvafiq xidmət haqları dövlət büdcəsindən maliyyələşən xüsusi təhlükəli xəstəliklərə görə yerinə yetiriləcək baytarlıq tədbirləri üçün müəyyən edilmişdir.

Həmçinin Nazirlər Kabinetinin 2021-ci il 18 oktyabr tarixli Qərarı ilə “Naxçıvan Muxtar Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri”ndə edilmiş dəyişikliyə görə mis və mis qırıntılarının ixracı üçün tətbiq olunan rüsum dərəcələrinin müddəti 2024-cü ilin sonunadək uzadılmışdır.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

## Gəncliyin missiyası: dövlətçiliyə sədaqət



*Naxçıvan Dövlət Universitetində Yeni Azərbaycan Partiyası Universitet şəhərciyi ərazi ilk partiya təşkilatı ilə Universitet Tələbə-Gənclər Təşkilatının birgə həyata keçirdiyi “Gəncliyin missiyası: dövlətçiliyə sədaqət” layihəsi çərçivəsində növbəti tədbir olub.*

Yeni Azərbaycan Partiyası Universitet şəhərciyi ərazi ilk partiya təşkilatının sədri Arzu Abdullayev ulu öndər Heydər Əliyevin hələ 1995-ci ildə gənclərin I Forumunda söylədiyi ***“Elə bir gənclik yetişdirməliyik ki, sabah estafeti bizdən qəbul etməyə hazır olsun. Vətənpərvər gənc nəsil yetişib. Vətənpərvər nəsil olmasa, uğurlardan danışmaq olmaz”*** fikrini tədbir iştirakçılarının diqqətinə çatdırıb. Qeyd olunub ki, gənclər siyasətinin təməlində duran prinsiplər gənc nəslə uğurla aşılanır. Bildirilib ki, ulu öndərin bizə miras qoyub getdiyi vətənpərvərlik missiyasının aydın təzahürünü II Qarabağ müharibəsində gənclərimizin timsalında gördük.

Tələbə-Gənclər Təşkilatının sədri Əziz Qasımov qeyd edib ki, hər bir dövlətin əsas missiyası gələcəyini etibar edəcəyi nəsil formalaşdırmaqdır. Muxtar respublikada uğurlu gənclər siyasətinin nəticəsidir ki, müasir gənclər artıq dünya gənclərinə nümunə olacaq səviyyəyə çatıb. Çıxışda sədr tələbələrin də bu proseslərdə fəal iştirakından danışıb.

Tələbələrin diskussiyası şəklində davam edən tədbirdə suallar cavablandırılıb, fikirlər səsləndirilib. Çıxışlarda II Qarabağ müharibəsində iştirak edən qəhrəman gənclərimizin örnək vətənpərvərlik nümunəsi gənc nəslə aşılanıb.

## Naxçıvan şəhərində yeni Avtomat Telefon stansiyaları quraşdırılır



*Muxtar respublikada iqtisadiyyatın aparıcı sahələrindən olan rabitə və yeni texnologiyaların inkişafına xüsusi diqqət göstərilir. Bu məqsədlə rabitə və yeni texnologiyalar sahəsində yeni infrastrukturun qurulması, müasir texnologiyaların tətbiqi istiqamətində bir sıra tədbirlər həyata keçirilir.*

Muxtar respublikanın sosial-iqtisadi inkişafı fonunda əhalinin, habelə yeni inşa edilən fərdi yaşayış evlərinin artımı yeni abonentlərin rabitə və internet xidmətləri ilə əhatə olunmasını aktual edir. Əhalinin rabitə xidmətlərinə olan tələbatının ödənilməsi məqsədilə yeni nəsil avadanlıqlar quraşdırılır.

Belə ki, sakinlərin müraciətləri nəzərə alınaraq ilkin olaraq Naxçıvan şəhərinin bir sıra yaşayış məntəqələrində abonentlərin keyfiyyətli rabitə xidmətlərindən istifadə etmələri üçün yeni Avtomat Telefon stansiyaları quraşdırılır, habelə bir sıra yerlərdə aztutumlu Avtomat Telefon stansiyaları yüksək montaj tutumuna malik yeni nəsil Avtomat Telefon stansiyaları ilə dəyişdirilir.

Əhalinin müasir rabitə xidmətlərinə olan tələbatını nəzərə alaraq 928 nömrə tutumuna malik 2 ədəd elektron Avtomat Telefon Stansiyası “İstiqlal” küçəsində və Heydər Əliyev prospektində quraşdırılaraq istismara verilib. Xətai məhəlləsində mövcud olan 320 montaj tutumlu Avtomat Telefon Stansiyası 544 montaj tutumuna malik yeni nəsil Avtomat Telefon Stansiyası ilə dəyişdirilib, 576 və 544 montaj tutumuna malik 2 ədəd Avtomat Telefon Stansiyası isə quraşdırılaraq sakinlərin istifadəsinə verilib. Bu da nəticə etibarilə istifadəçi sayının artmasına və sakinlərin çoxçeşidli xidmətlərdən istifadəsinə zəmin yaradacaq.



Naxçıvan şəhərində yeni nəsil Avtomat Telefon stansiyalarının quraşdırılması, aztutumlu Avtomat Telefon stansiyaların isə montaj tutumu artıq olan Avtomat Telefon Stansiyası ilə dəyişdirilməsi nəzərdə tutulub. Həyata keçirilən tədbirlərin muxtar respublikanın rayonlarında da davam etdirilməsi planlaşdırılıb.

Qeyd edək ki, NGN texnologiyası əsasında quraşdırılan Avtomat Telefon stansiyaları strukturuna görə daha sadə və səmərəli şəbəkə konfiqurasiyasına malik ən müasir telekommunikasiya sistemi olub, istifadəçilərə telefon rabitəsi ilə yanaşı, multimedia xidmətləri, yüksəksürətli internet, videogörüntülü rabitə və çoxlu sayda servis xidmətləri təqdim edir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Nizami Gəncəvi yaradıcılığına həsr olunmuş onlayn respublika konfransı keçirilib



*Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı ilə “Şərq ədəbiyyatında Nizami Gəncəvi yaradıcılığı” mövzusunda onlayn respublika elmi konfransı keçirilib.*

Universitetin Elm və innovasiyalar bölməsinin müdiri Rza Məmmədovun moderatorluq etdiyi tədbirdə giriş sözü ilə çıxış edən Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev konfrans iştirakçılarını salamlayaraq Nizami Gəncəvinin ümumbəşəri mahiyyət daşıyan, ecazkar poetik qüvvəyə malik yaradıcılığının nəinki ölkəmizdə, həm də dünya ədəbiyyatında əvəzsiz yeri olduğunu vurğulayıb. Qeyd edilib ki, 2021-ci ilin Azərbaycanda “Nizami Gəncəvi ili” elan olunması Nizami irsinin öyrənilməsi, tədqiqi və təbliği istiqamətində yeni imkanlar yaradır.

Naxçıvan Dövlət Universitetinin professoru, filologiya elmləri doktoru Sədaqət Həsənova “Nizami Gəncəvinin söz dünyası” adlı çıxışında yüksək milli-əxlaqi, vətənpərvərlik nümunəsi olan dahi şairin fenomenal bəşəri irsindən, humanizm, insana məhəbbət, yüksək əxlaq, estetik zövq, tərbiyə və bilik mənbəyi olan əsərlərindən danışıb, şairin bəşəriyyətin ədəbi fikir tarixinə verdiyi töhfələrdən ətraflı bəhs edib.

“Nizami Gəncəvi yaradıcılığında tolerantlıq və çoxmədəniyyətlilik” mövzusunda çıxış edən Mingəçevir Dövlət Universitetinin dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru Esmira Cəfərova qeyd edib ki, Nizaminin poeziyası əsrlərdən bəri öz təravətini daim saxlayıb, əbədiyaşarlıq nümunəsi kimi dünya mədəniyyətinə, ədəbiyyatına ölməz incilər bəxş edib.

Naxçıvan folklorunda Nizaminin “Xosrov və Şirin” poeması ilə səsləşən rəvayətlər” mövzusunda Naxçıvan Müəllimlər İnstitutunun professoru, filologiya üzrə elmlər doktoru Yusif Səfərov dahi şairin yaradıcılığında folklor məsələlərinə toxunub, bəzi maraqlı məqamları tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Konfrans bölmə iclasları ilə davam edib. Qeyd edək ki, bölmə iclaslarında AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsi, AMEA Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu, AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı və Şəki filialları, Mingəçevir Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu əməkdaşları elmi məruzələrlə çıxış ediblər.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Hərbi hissələr qışa tam hazırdır

*Avqustun 28-də Naxçıvan Muxtar Respublikasında 2021-2022-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə Əlahiddə Ümumqoşun Orduya Naxçıvan Qarnizonu üzrə hərbi hissələrdə qış mövsümü üçün tələb olunan geyim, yanacaq və ərzaq ehtiyatının yaradılmasının vaxtında başa çatdırılması ilə bağlı müvafiq tapşırıqlar verilib. Buna görə də hərbi hissələrdə təchizat və təminat işləri aparılıb, silah və texnikanın payız-qış mövsümünə uyğun istismar şəraitinə keçidi təşkil olunub.*

Qeyd edək ki, hər tərəfdən dağ silsilələri ilə əhatə olunan Naxçıvan Muxtar Respublikasının qışı soyuq və qarlı keçən yüksək dağlıq zonalarında etibarlı müdafiə sistemi qurulub. Əlahiddə Ümumqoşun Ordunun çətin dağlıq şəraitdə yerləşən və hər bir müdafiə mövqeyi alınmaz qalaya çevrilən bölmələrində müasir əsgəri-məişət kompleksləri tikilərək şəxsi heyətin istifadəsinə verilib.

Möhkəm müdafiə potensialına malik birinci eşelon bölmələrində inşa olunan binalar keyfiyyətli mebel dəstləri, müxtəlif növ dayanıqlı rabitə, daimi işıq və istilik sistemi ilə təchiz edilib. Əsgər və zabitlərin rahat şəkildə istirahəti, qidalanması və nümunəvi xidməti üçün tikilən hərbi obyektlərdə qış tədarükü görülərək isti geyim, yanacaq, içməli su və ərzaq təminatı yaradılıb. Əlavə olaraq məhdud fiziki imkanlı şəxslər tərəfindən hazırlanaraq əsgərlərimizə hədiyyə edilmiş isti qış geyimləri də yüksək dağlıq və sərt iqlim şəraiti olan ərazilərimizdə dislokasiya olunan bölmələrə çatdırılır. İsti geyim və keyfiyyətli ərzaqla təmin olunan, dövlətin və xalqın dəstəyini üzərində hiss edən şəxsi heyətin yüksək döyüş hazırlığına yiyələnməsi Vətənimizin etibarlı müdafiəsinə təminat verir.



Müdafiə mövqelərini daimi elektrik enerjisi ilə təmin etmək üçün köhnə elektrik aqreqatları yeniləri ilə əvəz olunub, yeni günəş panelləri quraşdırılıb. Çətin dağlıq şəraitdə yerləşən bölmələrdə, dayaq məntəqələri və mövqelərdə müşahidə məntəqələri, səngər və əlaqə yolları əlverişsiz hava şəraitinə uyğunlaşdırılıb. Bölmələrdə əsas və ehtiyat səngərlər, mövqelər və müşahidə məntəqələri salınaraq dayaq məntəqələri təkmilləşdirilib. Mühəndis texnikalarının köməyi ilə yaşayış məntəqələri və müdafiə mövqeləri arasında hərəkət yolları yenidən çəkilib və mövcud təminat yolları təkmilləşdirilərək bərpa edilib.

Çətin dağlıq şəraitdəki hərbi hissələrlə yanaşı, dislokasiya məntəqələrindəki hərbi şəhərciklərdə, ehtiyat birləşmə, hissə və bölmələrdə də qışa hazırlıq tədbirləri planauyğun həyata keçirilib, şəxsi heyətin soyuq qış aylarında heç bir çətinliklə üzləşməməsi üçün müvafiq işlər görülüb. Eyni zamanda döyüş texnikalarının, aviasiya və hərbi nəqliyyat vasitələrinin ən çətin və soyuq iqlim şəraitində istismar olunması üçün Əlahiddə Ümumqoşun Orduda bütün növ silah və texnikanın istismarının qış mövsümünə keçidi aparılır. Silah və texnikanın qış aylarında fasiləsiz və dayanıqlı istismarını təmin etmək məqsədilə birləşmə və hissələr mərkəzləşdirilmiş qaydada yanacaq-sürtkü materialları, digər zəruri ehtiyat hissələri və avadanlıqlarla təmin edilib. Texnikaların yanacaq-sürtkü materiallarının və filtrlərin dəyişdirilməsi, elektrik və hidravlik sistemlərinin yoxlanılması diqqət mərkəzində saxlanılır. Tankların və döyüş maşınlarının hərəkət hissəsinə, döyüş və güc bölmələrinə xüsusi qulluq göstərilir, bütün hərəkət hissələri yağlanır, tırtıllar tarımlanır, mühərriklərin mövsümə uyğun yağı dəyişdirilir. Bütün bu tədbirlər başa çatdıqdan sonra silah və hərbi texnikanın hər bir nümunəsinin təhlili aparılaraq nəticələr qiymətləndirilir.






Naxçıvan Qarnizonu Qoşunların da qışa hazırlıq tədbirləri çərçivəsində şəxsi heyətin sağlamlığı nəzərə alınaraq soyuq havalarda virus infeksiyalarının və yoluxucu xəstəliklərin qarşısının alınması məqsədilə hərbi hissələrin xəstəxana və tibb məntəqələri bütün tibbi ləvazimatlarla təmin olunub və hərbi qulluqçuların gigiyena qaydalarına düzgün əməl etmələri üçün profilaktik tədbirlər görülür. Həyata keçirilən qabaqlayıcı tədbirlərin nəticəsidir ki, hazırda dünyanın mübarizə apardığı xəstəliklərdən uzaq olan hərbi qulluqçularımız “Təlimdə tər, döyüşdə zəfər” prinsipi ilə keçirilən məşğələ və təlimlərdə peşəkarlıq nümayiş etdirir, ayıq-sayıq döyüş növbətçiliyi aparırlar.

**Nəriman NƏCƏFOV**

# Naxçıvanda aqrar sahə uğurla inkişaf etdirilir

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci il 9 oktyabr tarixli Fərmanı ilə hər il noyabrın 1-i ölkəmizdə "Kənd Təsərrüfatı İşçiləri Günü" kimi qeyd olunur.*

Ümummilli lider Heydər Əliyevin ölkəmizə birinci rəhbərliyi dövründə Azərbaycan aqrar sahədə keçmiş ittifaqın kənd təsərrüfatının kompleks inkişaf etdiyi qabaqcıl respublikalardan birinə çevrilmişdir. Həmin dövrdə ölkəmizdə kənd təsərrüfatının elmi əsaslarla inkişafı nəticəsində bu sahədə zəngin təcrübə formalaşmışdır. Təəssüf ki, müstəqilliyin ilk illərində ölkədə baş verən özbaşınalıq nəticəsində aqrar sahədə yaradılan bu infrastruktur da tamamilə dağıdılmışdır. Həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyən ümummilli lider isə kənd təsərrüfatının inkişafının vacibliyini daim ön plana çəkmiş, bununla bağlı mühüm qərarlar qəbul etmişdir. Ali Məclisin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" qərarlar qəbul edilmiş, bununla da Azərbaycanda torpaq islahatına ilk dəfə Naxçıvandan başlanılmış, özəl mülkiyyətə əsaslanan aqrar münasibətlər formalaşmışdır. 1993-2003-cü illərdə isə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə bu istiqamətdə kompleks tədbirlər görülmüş, uğurlu islahatlar həyata keçirilmiş, qanunvericilik bazası yaradılmışdır. Ulu öndər demişdir: ***"Azərbaycanın kənd təsərrüfatı potensialı – torpaqlarımız, hava, su kənd təsərrüfatı məhsulları istehsalının sürətlə artırılmasına yönəldilməli, bundan səmərəli istifadə olunmalıdır".***

Ulu öndərin müəyyənləşdirdiyi aqrar islahatlar bu gün ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, kənd təsərrüfatının inkişafı diqqətdə saxlanılır, ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində ardıcıl tədbirlər görülür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Aqrar sahə bizim üçün strateji sahədir. Bu həm iqtisadi, həm sosial sahədir... Ona görə son illərdə kənd təsərrüfatının, regionların sosial-iqtisadi inkişafına göstərilən diqqət məhz bu məqsədi güdür ki, həm məşğulluq, həm məhsuldarlıq artsın və Azərbaycan həm öz daxili tələbatını, həm də ixrac edilən məhsulları ən yüksək səviyyəyə qaldırsın".***

Naxçıvan Muxtar Respublikasında da iqtisadiyyatın bütün sahələri kimi, kənd təsərrüfatının da inkişafı daim diqqət mərkəzində saxlanılır. Aparılan islahatlar bitkiçilik və heyvandarlıq, eləcə də emal sənayesinin inkişafı üçün geniş imkanlar açmışdır. 2000-ci ildə muxtar respublikada torpaq islahatı başa çatdırılmış, 72 min 758 ailəyə 56 min 372 hektar torpaq sahəsi verilmişdir. Bundan sonra kənd təsərrüfatının inkişafında əsaslı dönüş yaradılmış, bol məhsul istehsalının əsası qoyulmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq edilmiş Dövlət proqramları muxtar respublikada aqrar sahənin inkişafına mühüm təkan vermiş, kənd təsərrüfatının ayrı-ayrı sahələri üzrə uğurlu nəticələr əldə olunmuşdur. Qəbul edilən Dövlət proqramlarının icrası istiqamətində həyata keçirilən tədbirlər məhsul bolluğuna zəmin yaratmış, təsərrüfatın müxtəlif sahələr üzrə fəaliyyətini şaxələndirmişdir.

Muxtar respublikada əhalinin əsas hissəsinin kənd təsərrüfatı ilə məşğul olması burada əkinçiliyin inkişafını şərtləndirir. Fermerlərə əkinlərə görə subsidiyaların verilməsi, texniki təminatın yaxşılaşdırılması üçün istehsalçılara lizinq yolu ilə güzəştli şərtlər əsasında texnika və gübrələrin satılması əkinçiliyin inkişafında yeni istiqamətlər açmış, əkin sahələrinin və məhsuldarlığın ilbəil artmasına səbəb olmuşdur. 2021-ci ilin məhsulu üçün muxtar respublikada 64 min 259 hektar sahədə əkin aparılmışdır. Cari ilin 9 ayı ərzində muxtar respublikada 105 min 807 ton dənli və dənli-paxlalı, 11 min 44 ton dən üçün qarğıdalı, 395 ton dən üçün günəbaxan, 71,8 ton tütün, 77 min 470,1 ton tərəvəz, 54 min 689 ton kartof, 33 min 615 ton bostan məhsulları, 41 min 299,2 ton meyvə, 10 min 158,4 ton üzüm istehsal olunmuşdur. Bir neçə məhsul növü üzrə yığım hazırda davam etdirilir.

Su təminatının yaxşılaşdırılması kənd təsərrüfatının inkişafı ilə yanaşı, torpaq ehtiyatlarının qorunmasına da şərait yaradır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 27 noyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılmasına dair" Tədbirlər Planına uyğun olaraq bu sahədə işlər davam etdirilir. Torpaq sahələrinin normalara uyğun suvarma suyu ilə təchizatı əkinçiliyin inkişafını təmin edən əsas amillərdən biridir. Buna görə də muxtar respublikada irriqasiya sistemləri daim yeniləşdirilir, qapalı suvarma şəbəkələri qurulur, meliorasiya tədbirləri həyata keçirilir. Bu da torpaq sahələrində su təminatının yaxşılaşdırılmasına, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına, eyni zamanda məşğulluğun təmin olunmasına imkan verir. Cari ilin ötən dövründə meliorasiya və irriqasiya sistemlərinin yenidən qurulması diqqətdə saxlanılmış, Babək rayonunun Nehrəm qəsəbəsi ərazisində 1170, Culfa rayonunun Bənəniyar kəndi ərazisində 1050, Şahbuz rayonunun Türkeş, Sələsüz, Mərəlik kəndlərinin ərazilərində 618, Kəngərli rayonunun Böyükdüz, Xok, Yurdçu kəndləri ərazilərində 2690 hektar torpaq sahəsində qapalı suvarma şəbəkələrinin tikintisi başa çatdırılmışdır. Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində yeni qapalı suvarma şəbəkələrinin tikintisi davam etdirilir.

"2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar olaraq Kənd Təsərrüfatı Nazirliyi tərəfindən əhalinin meyvə və tərəvəz məhsullarına olan tələbatının yerli istehsal hesabına təmin edilməsi məqsədilə meyvəçiliyin inkişafı ilə bağlı müvafiq tədbirlər həyata keçirilir. Son illər əkinçilik üçün yararlı olmayan torpaq sahələrinin iməciliklər yolu ilə salınan yeni meyvə bağları muxtar respublikanın yaşıl örtüyünü zənginləşdirməklə



yanaşı, həm də əhalinin meyvə məhsullarına olan tələbatının ödənilməsi üçün geniş imkanlar açır. Hər il meyvə bağlarından tonlarla məhsul yığılır. Yeni və ənənəvi meyvə sortlarından ibarət bağların salınması da davam etdirilir. Cari ilin ötən dövründə muxtar respublikada, ümumilikdə, 64,3 hektar sahədə yeni meyvə bağları salınmış, 67 min 399 müxtəlif meyvə tingi, 11 min 190 üzüm kolu əkilmişdir.

Muxtar respublikada həyata keçirilən sosial-iqtisadi siyasətin prioritet istiqamətlərindən birini əhalinin keyfiyyətli və təmiz ərzaq məhsulları ilə təmin olunması təşkil edir. Bu istiqamətdə görülən işlər ərzaq təhlükəsizliyinin gücləndirilməsi üçün vacib əhəmiyyətə malikdir. Heyvandarlıq aqrar sektorun əsas sahələrindən olmaqla, əhalinin ərzaq məhsulları ilə təmin edilməsində xüsusi əhəmiyyət kəsb edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 17 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramı"nın da əsas məqsədlərindən biri heyvan mənşəli qida məhsullarının ilkin istehsalı, tədarükü, emalı, qablaşdırılması, saxlanılması, daşınması, dövriyyəsi də daxil olmaqla, qida zəncirinin bütün mərhələlərində məhsulların təhlükəsizliyinin təmin edilməsidir. Hazırda muxtar respublikada iribuynuzlu mal-qaranın baş sayı 125 min 426-ya, xırdabuynuzlu heyvanların sayı isə 771 min 372-ə çatdırılmışdır. Cari ilin ötən dövründə 41 heyvandarlıq, 2 quşçuluq təsərrüfatı yaradılmış, 14 heyvandarlıq və 1 quşçuluq təsərrüfatı sahəsinin genişləndirilməsi işləri başa çatdırılmışdır. 20 heyvandarlıq təsərrüfatının yaradılması və 1 heyvandarlıq kompleksinin yenidən qurulması davam etdirilir. Bank və kredit təşkilatları tərəfindən kənd təsərrüfatı ilə məşğul olan təsərrüfat subyektlərinə, ümumilikdə, 13 milyon 500 min manat güzəştli kredit verilmişdir ki, bunun da 11 milyon 6 min 100 manatı heyvandarlığın inkişafı üçün ayrılmışdır.

Muxtar respublikada heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması və məhsuldarlığın yüksəldilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 21 sentyabr tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının Süni Mayalanma Mərkəzi yaradılmış və mərkəzdə yeni infrastruktur obyektlərinin tikintisi başa çatdırılaraq istifadəyə verilmişdir. Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu il heyvandarlıq təsərrüfatlarında süni yolla 10 min 74 baş inək, düyə və camış mayalandırılmış, əvvəlki dövrdə mayalandırılmış inək, düyə və camışlardan 7 min 168 baş sağlam bala alınmışdır. Süni Mayalanma Mərkəzinin fəaliyyətə başlaması heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması istiqamətində daha geniş imkanlar açacaqdır. Əhalinin balıq əti ilə təmin olunması istiqamətində də əsaslı işlər görülmüşdür. Hazırda muxtar respublikada balıq yetişdirilməsi ilə bağlı 16 təsərrüfat fəaliyyət göstərir. Görülmüş işlərin nəticəsidir ki, 2021-ci ilin 9 ayı ərzində diri çəkidə ət istehsalı 20 min 118,6 ton, süd istehsalı 74 min 712,2 ton, yun istehsalı 925,2 ton, yumurta istehsalı isə 89 milyon 771 min 600 ədəd olmuşdur. Əhalini sağlam heyvandarlıq məhsulları ilə təmin etmək üçün Dövlət Baytarlıq Xidməti tərəfindən də tədbirlər həyata keçirilir. Bu məqsədlə həyata keçirilən sistemli tədbirlər nəticəsində qida məhsullarının, xüsusilə ət və süd məhsullarının yüksək keyfiyyət göstəricilərinin təmin olunması, heyvan mənşəli xəstəliklərə qarşı vaxtında mübarizə tədbirlərinin aparılması prosesləri uğurla davam etdirilir.

Ölkəmizin bir çox bölgələrində olduğu kimi, Naxçıvanda da arıçılıq aqrar istehsalın davamlılığını və səmərəliliyini təmin edən gəlirli sektorlardan biridir. Qədim diyarımızda kifayət qədər nektarlı bitki növlərinin olması burada arıçılığın inkişafına səbəb olmuşdur. Bu sahənin yeni inkişaf mərhələsinə qədəm qoymasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın mühüm rolu var. Proqramın uğurlu icrası arı ailələrinin sayının artmasına və bu sahədə ümumi məhsuldarlığın daha da yüksəldilməsinə şərait yaradır. Muxtar respublikada 99 min 935 arı ailəsi vardır. İstehsal olunan balın satışı üçün şəraitin yaradılması və ənənəvi olaraq "Arıçılıq məhsulları – bal festivalı"nın və satış yarmarkasının keçirilməsi arı ailələrinin çoxalmasına, bal istehsalının artmasına və bu sahədə sahibkarlığın inkişafına stimul olmuşdur.

Kənd təsərrüfatının bitkiçilik sahəsində əldə olunan uğurlarda sahibkarların müasir kənd təsərrüfatı texnikaları ilə təchiz olunmasının böyük rolu vardır. Hazırda muxtar respublikada sahibkarlara aqroservis xidməti "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin rayonlarda olan kənd təsərrüfatı maşın və aqreqatları ilə yanaşı, həm də şəxsi texnikalar vasitəsilə həyata keçirilir. Ötən dövrdə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 3386 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası gətirilmiş, onlardan 2554-ü nağd hesablaşma və lizinq yolu ilə sahibkarlara satılmışdır. Alınmış texnika və aqreqatların 311-i cari ilin 9 ayında gətirilmişdir. Mövcud texnikalar kənd təsərrüfatı sahəsində aqrotexniki tədbirləri keyfiyyətlə həyata keçirməyə imkan verir. Fermerlərə lizinq yolu ilə müasir tələblərə cavab verən yeni kənd təsərrüfatı texnikalarının alınıb icarəyə verilməsi ilə bağlı güzəştlərin tətbiqi isə bu sahədə fəaliyyətin səmərəli təşkilinə hesablanmışdır.

Əkinçilikdə məhsuldarlığın yüksəldilməsi üçün vacib amillərdən biri də torpaqların qida maddələri ilə təminolunma dərəcəsinin müəyyən edilməsidir. Bu istiqamətdə də muxtar respublikada mühüm tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin struktur bölmələri olan Akademik Həsən Əliyev adına "Araz" Elm-İstehsalat Birliyi, Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsində yaradılan və yüksək standartlara cavab verən müasir avadanlıqlarla təchiz edilmiş laboratoriyalarda əkin sahələrindən götürülmüş torpaq nümunələri və toxum materialları analiz edilir. Kənd təsərrüfatının inkişafı istiqamətində həyata keçirilən tədbirlər sırasında strateji əhəmiyyətli istehsal sahələrindən olan toxumçuluq da diqqətdə saxlanılır. Hazırda muxtar respublikada toxuma olan tələbatı ödəmək və toxumluq məhsulların istehsalını artırmaq məqsədilə ardıcıl tədbirlər görülür, yeni toxumçuluq təsərrüfatları yaradılır, iqlim və torpaq xüsusiyyətlərinə uyğun məhsuldar toxum sortları yetişdirilir. Muxtar respublikada məhsuldar və keyfiyyətli toxum növləri istehsalının stimullaşdırılması məqsədilə toxumçuluq təsərrüfatlarının maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində işlər davam etdirilir. Naxçıvan şəhərində "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyəti üçün yeni kompleksin istifadəyə verilməsi tədbirində Ali Məclisin Sədri cənab Vasif Talıbov demişdir: ***"Dünyada hansı proseslərin baş verməsindən asılı olmayaraq, kənd təsərrüfatı mütləq inkişaf etdirilməlidir. Bu gün dünyada o ölkələr pandemiya ilə rahat mübarizə apara bilirlər ki, həmin ölkələrdə ərzaq təhlükəsizliyi təmin olunub. Kənd təsərrüfatı iqtisadiyyatın lokomotividir. Ona görə də kənd təsərrüfatı inkişaf etdirilməlidir ki, ölkədə digər sahələrin inkişafı da təmin olunsun. Muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində görülən işlər, kənd təsərrüfatının inkişafı qarşıdakı illərdə də məhsul bolluğu yaradacaqdır. Məqsəd ondan ibarətdir ki, kənd təsərrüfatı sahəsində əhalinin məşğulluğu təmin olunsun, məhsul istehsalı daha da artsın".*** Hazırda muxtar respublikada 7 toxumçuluq təsərrüfatı fəaliyyət göstərir. Sahibkarlara elit, I və II



reproduksiyalı buğda və arpa toxumlarının satışının təşkil edilməsi, eləcə də 70 faiz güzəştli şərtlərlə mineral gübrələrin verilməsi təmin olunur. Ötən dövrdə məhsul istehsalçıları 7 min 542,3 ton mineral gübrə ilə təmin olunmuşdur. İstehsal olunan I və II reproduksiyalı toxumların satışına görə dövlət tərəfindən subsidiyaların ödənilməsi, həmçinin əkin sahəsinin hər hektarına fermerlərə 60 manat yardım verilməsi taxıl istehsalına marağı daha da artırmışdır.

Əhalini ilboyu meyvə-tərəvəz məhsulları ilə təmin etmək muxtar respublikada aqrar sahədə həyata keçirilən əsas tədbirlərdəndir. İritutumlu soyuducu anbarların tikilməsi və istixana komplekslərinin yaradılması ilin istənilən fəslində bazarın tələbatının ödənilməsinə imkan verir. Hazırda muxtar respublikada ümumi tutumu 21 min 150 ton olan 49 soyuducu anbar və sahəsi 150 min 817 kvadratmetr olan 34 istixana kompleksi fəaliyyət göstərir.

Muxtar respublikada əhalinin ərzaq məhsullarına olan tələbatının etibarlı ödənilməsi istiqamətində əlavə tədbirlər də görülür, istehsal olunan malların satışı üçün hərtərəfli şərait yaradılır. Kənd təsərrüfatının dayanıqlı inkişafının təmin olunması və istehsal olunan məhsulların ixrac potensialının artırılması ilə kənd təsərrüfatı istehsalına əsaslanan emal müəssisələrinin qurulması məqsədilə "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı" təsdiq edilmişdir. Artan tələbatın qarşılanmasında, istehlak sahəsində əlçatanlığın təmin olunmasında istehsal anlayışı müstəsna əhəmiyyətə malikdir. Məhz bu baxımdan təsdiq olunan Dövlət proqramının böyük əhəmiyyəti vardır. Artıq bir neçə ildir ki, istehsalçıların istehsal etdikləri məhsulların satışını təmin etmək üçün kənd təsərrüfatı məhsullarının satış yarmarkaları təşkil edilir. Bütün bunlar əhalinin ərzaq məhsulları ilə etibarlı təmin olunmasında həlledici rol oynayır. Etibarlı ərzaq təminatının yaradılması hesabına ixrac potensialı da artırılmışdır. 2021-ci ilin yanvar-sentyabr aylarında muxtar respublikada 409 milyon 830 min 300 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,5 faiz çoxdur.

*Aqrar sahənin inkişafı muxtar respublikada ailə təsərrüfatlarının fəaliyyəti üçün də geniş imkanlar açır. İstər məhsul istehsalı və satışı üçün yaradılan şərait, istərsə də texnika təminatı və dövlət maliyyə dəstəyinin göstərilməsi ailə təsərrüfatlarının sayının ilbəil artmasına səbəb olmuşdur. Bu gün muxtar respublikada ailə təsərrüfatlarının əksər hissəsinin aqrar sahə üzrə ixtisaslaşması daxili bazarın keyfiyyətli yerli məhsullarla təminatına öz töhfəsini verir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***"Su təminatı, əkinəyararlı və bərəkətli torpaqlar olan yerdə inkişaf təmin olunur və ərzaq bolluğu yaranır. Çünki ölkə iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Əgər bu sahədə işlər düzgün qurularsa, o zaman iqtisadiyyat da inkişaf edəcəkdir. İqtisadiyyatın lokomotivi isə kənd təsərrüfatıdır".***

**Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti**

# Naxçıvan musiqi mədəniyyətinin inkişafında xidmətləri olan sənətkar

***Naxçıvan Azərbaycanın maddi-mənəvi dəyərləri ilə zəngin olan ərazilərindən biridir. Bu qədim diyar mövcud olduğu dövrdən mədəniyyət, incəsənət, ədəbiyyat beşiyi kimi tanınmış və dünya mədəniyyətinə onlarla abidələr, qüdrətli sənətkarlar bəxş etmişdir. Naxçıvanın mərkəzində ucaldılaraq gözəlliyi və monumentallığı ilə turistləri özünə cəlb edən Möminə xatın məqbərəsinin müəllifi memar Əcəmi Naxçıvani, Azərbaycanda ilk dəzgah rəssamlığının banisi Bəhruz Kəngərli, dünya şöhrətli akademik Yusif Məmmədəliyev, "Molla Nəsrəddin" jurnalının yaradıcısı Cəlil Məmmədquluzadə, şair-dramaturq Hüseyn Cavid, qüdrətli səhnə ustaları Rza Təhmasib, Kazım Ziya... kimi tanınmış şəxsiyyətlər bu torpaqda dünyaya göz açmışlar.***

Naxçıvan tarixinin möhtəşəm sütunlarından biri Naxçıvanın musiqi mədəniyyəti tarixidir. Qəmiqaya rəsmlərində təsvir edilmiş rəqs hərəkətlərinin elementləri, rəqslərin dinamikası və ifaçıların mimikası Naxçıvan musiqi ifaçılıq sənətinin hələ 5-6 min il əvvəl formalaşmağa başladığını göstərir və bu, artıq sübuta yetirilib.



Azərbaycanda Bakıdan sonra ilk musiqi məktəbinin 1937-ci ildə məhz Naxçıvanda açılması heç də təsadüfi deyil. Yerli əhalinin mədəniyyətə olan marağı, Naxçıvan şəhərində və ona bitişik ərazilərdə əhalinin sayı, Zülfüqar Hacıbəyovun vaxtilə Naxçıvanda yaşayıb-yaratması, burada olan musiqi mühiti ilə Üzeyir bəyi yaxından tanış etməsi, Hüseyn Cavidlə Üzeyir bəyin qardaşlıqdan seçilməyən dostluğu, Cəlil Məmmədquluzadə ilə daimi yaradıcılıq əlaqələrinin olması və nəhayət, Üzeyir Hacıbəyovun 1937-ci ildə Naxçıvan MSSR Ali Sovetinə deputat seçilməsi Bakıdan sonra məhz Naxçıvanda ilk musiqi məktəbinin açılmasına səbəb olmuşdur.

Naxçıvan musiqi mədəniyyəti tarixində xüsusi xidmətləri olmuş görkəmli insanların həyat və yaradıcılığını öyrənib tədqiq etmək və bugünkü nəslə çatdırmaq hər birimizin mənəvi borcudur. Naxçıvanın musiqi həyatında adı hörmət və məhəbbətlə çəkilən şəxslərdən biri də Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi, bəstəkar, dirijor, xormeyster və pedaqoq, Naxçıvan musiqi incəsənəti üçün çox dəyərli xidmətlər göstərən yaradıcı ziyalı olmuş Məmməd Məmmədovdur.

Onun bədii yaradıcılığı və pedaqoji fəaliyyəti Naxçıvanda ictimai hadisələrlə bağlı olaraq inqilabi ruhda mahnıların, marşların və nəfəsli alətlər ansamblların yarandığı dövrə təsadüf edir. Naxçıvanda kütləvi musiqi tədbirlərinin keçirilməsində yaxından iştirak edən bəstəkar yorulmaq bilmədən, böyük həvəslə uşaq müəssisələrində iş aparmış, Naxçıvanda truba və akkordeon siniflərinin, vokal ansamblların, xor kollektivlərinin yaradılmasında müstəsna xidmətlər göstərmişdir.

Bəstəkarın ilk musiqi müəllimi Məmməd Kəngərli olub. Orta məktəbdə riyaziyyat müəllimi və dərs hissə müdiri işləyən Məmməd Kəngərlinin burada yaratdığı nəfəsli alətlər orkestrinin üzvlərindən biri məhz Məmməd Məmmədov idi. Məmmədə truba musiqi alətini də müəllimi sevdirmişdi. 1937-ci ildən, 2 illik Pedaqoji Məktəbi bitirdikdən sonra müəllim fəaliyyətinə başlayan gənc musiqiçi bir il sonra müəllimi Məmməd Kəngərli ilə birlikdə Tibb Məktəbində qızlardan ibarət nəfəsli alətlər orkestri təşkil etmişdi.

Bədii yaradıcılığa 1939-cu ildən başlayan Məmməd müəllim 100-ə yaxın musiqi əsərinin müəllifidir. Həvəskar bəstəkarın ilk əsərləri olan "Naxçıvan", "Ala gözlər", "Məktəblilər mahnısı", "Naxçıvan, Vətənimsən", "Duyuram səni", "O gün olaydı" və bir sıra başqa əsərləri dinləyicilər tərəfindən rəğbətlə qarşılanmışdır. Bu əsərlər arasında olan "Məktəblilər mahnısı"nın not yazısı Azərbaycan SSR-in 40 illiyi münasibətilə dövlət tərəfindən çap edilmişdir.

Qeyd etmək yerinə düşər ki, 1940-cı ildə Bakıda keçirilən idman bayramı ilə bağlı tədbirin musiqisinin gənc bəstəkara həvalə olunması onun Naxçıvanın musiqi həyatındakı böyük rolundan xəbər verir. O zaman Azərbaycanda keçirilən idman paradında ümumi orkestrə dirijor-bəstəkar Niyazi Tağızadə-Hacıbəyov rəhbərlik edirdi. 350 naxçıvanlı idmançı Bakıda Məmməd Məmmədovun şən musiqi təranələri altında öz istedadlarını nümayiş etdirdi. Onun yazdığı musiqidən razı qalan Niyazinin, o cümlədən münsiflər heyətinin diqqətini cəlb edən məqamlardan biri bəstəkarın qara zurna milli musiqi alətini nəfəsli orkestrə daxil etməsi idi. Həmin il Pedaqoji Məktəbin direktoru Məmmədəli Tarverdiyev qızlardan ibarət nəfəsli orkestrə rəhbərlik etmək üçün Məmməd Məmmədovu dəvət edir. Bütün bunlar sənətkarın gələcəkdəki böyük uğurlara imza atacağı, sadəcə, ilk addımları idi.

İkinci Dünya müharibəsi illərində cəbhəyə yollanan M.Məmmədov burada da öz fəaliyyətini davam etdirmişdir. Digər bəstəkarlar kimi o da vətənpərvərlik ruhunda bir-birindən gözəl əsərlər ərsəyə gətirirdi. O illərin məhsulu kimi "Dostluq mahnısı", "Ana Vətən", "Azərbaycanım" mahnılarını qeyd edə bilərik. Bəstəkarın məşhur "Dostluq süitası" 15 musiqi nömrəsindən ibarət olaraq müxtəlif xalqların mahnı və rəqslərindən tərtib edilmişdir.



Müharibədə belə, sevimli aləti olan trubanı öz yanından ayırmayan sənətkar alaylarda yaradılmış nəfəsli alətlər orkestrinin tərkibində çıxışlar edərək Azərbaycan xalq mahnı və rəqslərinin ifası ilə həmyerlilərimizin könlünü oxşayırdı.

Müharibədən sonra pedaqoji fəaliyyətini əvvəl Həştərxanda, sonra isə Volqaqradda orta məktəbdə musiqinin tədrisi ilə davam etdirən bəstəkar 1953-cü ildə doğma Naxçıvana qayıdaraq 8 il dəmiryol məktəbində işləyir. Muxtar respublikanın elə bir bölgəsi yox idi ki, orada keçirilən musiqili tədbirlərdə Məmməd Məmmədovun məsləhətlərinə və şəxsən özünün iştirakına ehtiyac olmasın, onun əsərləri səslənməsin.

Uzun illər Naxçıvan Pioner və məktəblilər evində bədii rəhbər vəzifəsində çalışan sənətkar Naxçıvanda ilk dəfə çoxsəsli xorun bünövrəsini qoymuş və istəyinə nail ola bilmişdir. Onun 1956-cı ildə yaratdığı "Əlvan çiçəklər" mahnı və rəqs ansamblı muxtar respublikada musiqi və rəqs mədəniyyətinin inkişafında mühüm mərhələ təşkil edib. Məhz bu ansamblın fəaliyyəti Naxçıvan musiqi mədəniyyəti tarixinin zəngin səhifələrindən birinə çevrilərək, bəstəkarın yaradıcılığının formalaşmasında mühüm əhəmiyyət kəsb etmişdir. Ansambl hər il Bakıda pionerlər və məktəblilər evi bədii özfəaliyyət kollektivlərinin olimpiadalarında uğurla çıxış edərək ilk yerlərə layiq görülürdü. Təsadüfi deyil ki, olimpiadanın münsiflər heyətinin sədri görkəmli bəstəkar Əfrasiyab Bədəlbəyli "Əlvan çiçəklər" mahnı və rəqs ansamblını Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası "Mahnı və rəqs" ansamblının kiçik qardaşı, layiqli davamçısı adlandıraraq "Azərbaycan gəncləri" qəzetində ansamblın, o cümlədən Məmməd müəllimin işinə yüksək qiymət vermişdir.

Bəstəkar Məmməd Məmmədovun yaradıcılıq irsinin çox geniş və zəngin olmasına baxmayaraq, təəssüflə demək lazımdır ki, onların əksəriyyətinin nə not yazısı, nə də lent yazıları qorunub saxlanmışdır. Günümüzə qədər gəlib çatmış istər irihəcmli əsərləri, istərsə də kiçik pyesləri melodik dili və harmoniyası ilə fərqlənir. Bu əsərləri dinləyən hər bir musiqişünas Məmməd Məmmədovun özünəməxsus yaradıcılıq üslubunun olduğunu hiss edə bilər.

Məmməd Məmmədovun yazdığı bir çox mahnılar, o cümlədən Hüseyn Razinin sözlərinə bəstələnmiş "Gənclik mahnısı", Kəmalə Ağayevanın sözlərinə "Olaydım mən", "Nəğmə çalır ürəyim", Müzəffər Nəsirlinin sözlərinə "Doğma diyar", "Dostluq mahnısı", "Ana Vətən", "Azərbaycanım" mahnıları 1980-ci ildə nəşr olunmuş "Naxçıvan təranələri" adlı not məcmuəsinə daxil edilmişdir.

Gənclik illərindən başlayaraq ömrünün sonuna qədər Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının kollektivi ilə daim yaradıcılıq əlaqəsi saxlayan sənətkar 30-dan artıq tamaşaya musiqi bəstələmiş və bəzi əsərlərə musiqi tərtibatı vermişdir. Uzun müddət teatrın musiqi hissə rəhbəri işləyən bəstəkar Mirzə Fətəli Axundovun "Lənkəran xanının vəziri", Hüseyn Cavidin "Səyavuş", Əliyar Yusiflinin "Vicdan əzabı", Bəxtiyar Vahabzadənin "Ədalət", Lope de Veqanın "Sevilya ulduzu", Hüseyn Razinin "Arxalı dağlar", Əşrəf Qənbərovun "İlan yuxusunda fırtına", Həmid Arzulunun "İnam" tarixi pyesinə və onlarla digər pyeslərin tamaşalarına musiqi yazmışdır. Onun tamaşalara yazdığı musiqilər əsərdə olan obrazların psixoloji durumunun açılmasında mühüm rol oynayıb. Bu tamaşaların musiqiləri sonralar konsert salonlarında müstəqil şəkildə ifa edilərək dinləyicilərin böyük rəğbətini qazanmışdır.

Kamera-instrumental janrına da müraciət etmiş bəstəkar nəfəsli alətlər orkestri üçün marşlar, pyeslər, fortepiano üçün miniatürlər, "Qaytağı", truba və fortepiano üçün "Lirik rəqs", "Vals", xor üçün əsərlər, səs və fortepiano üçün mahnı-romanslar ərsəyə gətirmişdir.

Bəstəkarlıq və ictimai fəaliyyəti ilə yanaşı, bədii publisistik fəaliyyətlə də məşğul olan Məmməd Məmmədov mətbuat səhifələrində məqalələri, radio və televiziya verilişlərində çıxışları ilə həmişə musiqiçilərimizi yaradıcılığa səsləmiş, qaranlıq qalan bir çox mövzunu işıqlandırmışdır.

Daim gənclərə xüsusi diqqət və qayğı ilə yanaşan Məmməd müəllim bir pedaqoq kimi də böyük xidmətlər göstərmişdir. Onun dərs dediyi tələbələr muxtar respublikanın musiqi həyatında xidmətlər göstərmiş sənətkarlar olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2020-ci il yanvarın 28-də "Bəstəkar Məmməd Məmmədovun 100 illik yubileyinin keçirilməsi haqqında" imzaladığı Sərəncama əsasən ötən il bu yubiley əlamətdar mədəniyyət hadisəsi kimi qeyd olundu. Tanınmış mədəniyyət xadiminin yüzillik yubileyi münasibətilə silsilə elmi-kütləvi tədbirlərin keçirilməsi, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində yüksək poliqrafik keyfiyyət və nəfis tərtibatla "Məmməd Məmmədov – 100" adlı kitabın nəşr olunması tanınmış sənətkarın yaradıcılığına dövlət səviyyəsində verilən yüksək qiymətin təzahürüdür.***

***Bütün bunlar bir daha təsdiq edir ki, musiqi mədəniyyətində özünəməxsus xidmətləri olan sənətkarlar daim yaddaşlarımızda yaşayır. Onların mədəni irsi dövlət tərəfindən layiqincə təbliğ olunur, yaratdığı əsərlər qəlblərdə, könüllərdə özünə yer tapır və bundan sonra da qorunub yaşadılacaq.***

**Nərminə QƏDİMOVA**
***Naxçıvan Dövlət Universitetinin əməkdaşı, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi***

## *"Bu günün qənaəti sabahın əmanətidir"* adlı tədbir keçirilib

Dünən Azərbaycan Respublikası Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsində "Bank Savadlılığı Layihəsi" çərçivəsində 31 oktyabr Beynəlxalq Əmanət Günü ilə bağlı "Bu günün qənaəti sabahın əmanətidir" adlı tədbir keçirilib.



Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsində"Bank Savadlılığı Komandası" tərəfindən əhalinin bank savadlılığının artırılması və bu yolla onların hüquqlarının qorunmasına yönəlmiş tədbir Naxçıvan Dövlət Universiteti, "Naxçıvan" Universiteti və Naxçıvan Dövlət Texniki Kollecinin tələbələri üçün təşkil olunub.

Tədbirdə İqtisadi təhlil və statistika şöbəsinin rəisi Azər Səfərov əmanət yığımları üçün qənaət mədəniyyətinin aşılanması daha aşağı yaşlardan başlanıldığı üçün bu tədbirin universitet tələbələrinə yönəldiyini qeyd edib. Tədbirin keçirilməsində əsas məqsədin müxtəlif maarifləndirici vasitələrlə tələbələrin bank bilik və bacarıqlarının artırılması, həmçinin bank məhsul və xidmətləri ilə bağlı düzgün qərarların verilməsini dəstəkləmək və onlarda bank sektoruna inamı gücləndirməkdən ibarət olduğunu vurğulayıb.

Tədbir zamanı iştirakçılara Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin "Bank Savadlılığı Komandası"nın üzvləri Qənbər Xudiyev və Samil Quliyev tərəfindən pul xərcləmək bacarıqları, qənaət vərdişləri, qənaətin məqsədi, faydaları və qlobal əhəmiyyəti, əmanət anlayışı, onun formaları, əmanətin tarixi, faydaları, muxtar respublikadakı banklarda cəlb edilmiş əmanətlərin həcmi, banklarda əmanətlər üzrə faiz bölgüsü, əmanətlərin sığortalanmasının qaydaları və digər mövzular elektron slaydlarla tədris olunub və iştirakçıların mövzu ətrafında sualları ətraflı cavablandırılıb.

Tələbələrə bankların bank-maliyyə fəaliyyətini əks etdirən müxtəlif bukletlər paylanılıb və onlara banklarda mövcud olan bank məhsul və xidmətləri barədə geniş məlumat verilib.

Sonda iştirakçılar arasında oyun əsaslı tədris platforması olan "Kahoot" sistemi vasitəsilə yarış keçirilib. Qalib şəxslərə bankların "Gold"kart, "Kartmane" kimi bank məhsulları hədiyyə olunub. Qaliblər banklarda təcrübə keçmək imkanı əldə ediblər.

**Xəbərlər şöbəsi**

## Seminar-müşavirə olub

*Naxçıvan Müəllimlər İnstitutunda "Təhsilalanların elmi-tədqiqat fəaliyyətinin təşkili və qarşıda duran vəzifələr" mövzusunda seminar-müşavirə keçirilib.*



Tədbiri institutun prorektoru, psixologiya üzrə fəlsəfə doktoru Çapay Quliyev açaraq qeyd edib ki, institutda elmi-tədqiqat fəaliyyətinin təşkili və qarşıda duran vəzifələrin geniş müzakirəsinin tədris ilinin hər iki semestrində təşkil olunması artıq ənənə şəklini almışdır. Tələbə elmi tədqiqatların kəmiyyət və keyfiyyət göstəricilərinin ildə-ilə yüksəlməsi bu sistemli işin nəticəsi kimi dəyərləndirilə bilər. Bugünkü tədbirin əsas məqsədi bu işin səmərəliliyini artırmaqdan ibarətdir.

Seminar-müşavirədə Naxçıvan Müəllimlər İnstitutunun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, dosent Qurban Qurbanlı "Təhsilalanların elmi-tədqiqat işlərinə verilən tələblər və onların yerinə yetirilməsi yolları" mövzusunda məruzə ilə çıxış edib. Məruzədə təhsilalanların elmi-tədqiqat fəaliyyətinin məqsəd və vəzifələri, mahiyyət və xüsusiyyətləri, bu işlərin elmi-metodik və elmi-təşkilati məsələləri ətraflı şərh edilib. İnstitutun Tələbə Elmi Cəmiyyəti, fakültə və kafedralarında işlərin mərhələlər üzrə yerinə yetirilməsinin, elmi rəhbərlər tərəfindən icraçı tələbələrə elmi-metodik tövsiyə və göstərişlərin müntəzəm və səmərəli şəkildə verilməsinin və bu işlərin kafedralarda təsdiq olunmuş vahid formalı təqvim-tapşırıqlara uyğun aparılmasının zəruriliyi qeyd olunub.

Sonra Naxçıvan Müəllimlər İnstitutu Tələbə Elmi Cəmiyyətinin sədri Aysun Nağdəliyevanın "Naxçıvan Müəllimlər İnstitutunun Tələbə Elmi Cəmiyyəti: ötən tədris ilinin yekunları və 2021-2022-ci tədris ilində qarşıda duran vəzifələr" mövzusunda məruzəsi dinlənilib, müzakirələr aparılıb.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*
Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*
*Nömrəyə məsul:* Ceyhun Məmmədov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 1500. Sifariş № 908